Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Qadınlar arasında SAW həmrəylik

UNITED NATIONS HUMAN RIGHTS OFFICE OF THE HIGH COMMISSIONER

# Məişət zorakılığı hallarının mediada işıqlandırılması

# Jurnalistlər üçün BƏLƏDÇİ



Layihə rəhbəri: Ruhəngiz Hüseynova

*Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən həyata keçirilən "Azərbaycanda həssas qrupların hüquqlarının müdafiəsi" layihəsi çərçivəsində "Qadınlar Arasında Həmrəylik" Ictimai Birliyi tərəfindən həyata keçirilən "Azərbaycanda qadınlara qarşı məişət zorakılığına qarşı mübarizə" layihəsi çərçivəsində hazırlanmışdır. Bələdçinin müəllifi "Qadınlar Arasında Həmrəylik" Ictimai Birliyidir. Bələdçidə istifadə edilən məzmun heç bir halda Avropa İttifaqı və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının mövqeyini əks etdirmir.*

*Bələdçi Azərbaycan təcrübəsindəki nəticələri almaqla, eyni zamanda qabaqcıl beynəlxalq praktika, nümunələrin əsasında medianın və jurnalistlərin rolu, cavabdehliyi və məsuliyyəti ilə bağlı etik və peşə standartları, milli qanunvericiliyin tələblərini əks etdirməklə media icmasının üzvlərinə gender bərabərliyi və məişət zorakılığına qarşı mübarizə məsələləri üzrə həssas və məsuliyyətli şəkildə məlumat verməkdə kömək etmək məqsədi daşıyır.*

**Bakı 2023**

# Mündəricat


| Səhifə | Məzmun |
| --- | --- |
| 4 | Qısaltmalar və istifadə olunan anlayışlar |
| 5 | Giriş |
| 8 | Bələdçinin məzmunu |
| 9 | Məişət zorakılığı hallarının mediada işıqlandırılması zamanı etik mülahizələr və prinsiplər |
| 13 | Məişət zorakılığı hallarının mediada işıqlandırılmasında beynəlxalq və milli qanunvericiliklə müəyyənləşmiş tələblər |
| 25 | Məişət zorakılığı hallarının mediada işıqlandırılması və peşəkar kodekslərin tələbləri |
| 28 | Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydalarının nəzərdə tutduğu tələblər |
| 31 | Jurnalistlər üçün tövsiyyələr |

## Qısaltmalar və istifadə olunan anlayışlar

**BMT**- Birləşmiş Millətlər Təşkilatı

**Aİ**- Avropa ittifaqı

**AŞ**-Avropa Şurası

**CEDAW** - Qadınlara qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya

**BJF (İJF)** – Beynəlxaql Jurnalistlər Federasiyası

**APJC** – ABŞ Peşəkar Jurnlaitslər Cəmiyyəti

**Azərbaycan MŞ** – Azərbaycan Mətbuat Şurası

**AJPDQ** – Azərbaycan Jurnalistlərinin Peşə Davranış Qaydaları

**Məişət zorakılığı** – Bu bələdçidə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda verilmiş anlayışdan istifadə olunub. Sözügedən qanuna əsasən məişət zorakılığı yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır.

**Məişət zorakılığından zərərçəkmiş şəxs** - "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumunun, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxsin ona qarşı qəsdən törətdiyi fiziki, psixi, iqtisadi, cinsi zorakılıq hərəkətləri nəticəsində fiziki və ya mənəvi zərərçəkmiş şəxsdir.

**Media subyekti** - "Media haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əsas fəaliyyət növü kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxs.

## Giriş

Sosial, mədəni və iqtisadi amillərin mürəkkəb qarşılıqlı təsirinin nəticəsi kimi məişət zorakılığı, gender əsaslı zorakılıq bütün dünyada milyonlarla insana təsir edən mühüm problemdir. Son on illiklərdə qadınlara qarşı zorakılığın aradan qaldırılması təşəbbüsləri, o cümlədən ayrı-seçkiliyə yol açan sosial normaların və təcrübələrin zərərli təsirləri barədə məlumatlılığın artırılması, qadınların hüquqlarının qorunması ilə əlaqədar beynəlxalq və milli hüquqi mexanizmlərin formalaşması bu sahədə əsaslı irəliləyişlər əldə etməyə imkan verib. Başlıca naliyyətlərdən biri kimi məişət zorakılığı, gender əsaslı zorakılığın geniş yayılmasının cəmiyyətlərin, ölkələrin davamlı, harmonik inkişafına mane olan, münaqişələr, müharibələr, silahlı toqquşmaların bünövrəsi kimi çıxış edən zorakılığa haqq qazandıran mədəniyyətin təşəkkül tapmasının əsas səbəblərindən biri kimi qavranılmasıdır. Uzun illər insan hüquqları, qadın hüquqları təşkilatları və liderləri, vətəndaş cəmiyyəti, KİV, ictimai fəallar, qadın liderlər, akademik dairələrin ümumilikdə, pozitiv dəyişiklikləri dəstəkləyən mütərəqqi qüvvələrin gərgin mübarizəsi, birgə səyləri ilə məişət zorakılığı, gender əsaslı zorakılıq cəmiyyətin inklyuziv və ədalətli cəmiyyət quruculuğu yolunda ən ciddi əngəl kimi nəzərdən keçirilir.

Gender bərabərliyi və məişət zorakılığı ilə əlaqədar aparılan tədqiqatlar göstərir ki, bu istiqamətdə uğurların davamlı olması, müsbət dəyişikliklərin miqyasının genişlənməsi cəmiyyətlərdə bu yanaşmanın ictimai şüurda möhkəmlənməsi, müasir dünyagörüşünün bir hissəsi kimi çıxış etməsindən asılıdır. Bu sahədə qanunvericilik və institusional islahatların, müxtəlif səpkili tədbilərin həyata keçirilməsinin uğurlarının davamlı xarakter alması, qalıcı olması əsasən məişət zorakılığına qarşı sıfır dözümlülüyün ictimai və fərdi müstəvidə nə dərəcədə üstün dəyər olmasıyla şərtlənir. Dəyərlər fərdi və ictimai müstəvidə ali ideallar hesab edildiyindən ətraf aləmdə baş verənləri, insanların hadisələrə münasibətini qiymətləndirən normalar rolunu oynayır. Mənəviyyata söykənən dəyərləri qarşılıqlı ictimai münasibətlərin əsaslandığı başlıca bünövrə hesab etmək mümkündür. Dəyərlər sistemi bu və ya digər cəmiyyətin məqsəd və qayəsini müəyyənləşdirir, fərdi davranış tərzi və maraq dairəsini müəyyən edən meyarlar üçün əsas rolunu oynayır. Məişət zorakılığına qarşı sıfır dözümlülüyün ictimai və fərdi müstəvidə üstün dəyərlər sırasında yer alması, mövcud neqativ sosiomədəni steriotiplərin təsrinin azaldılması və təkümül yolu ilə çağdaş baxışlarla əvəzlənməsində media mühüm rola malikdir. Medianın bu rolu ictimai fikri formalaşdırmaq, düşüncə tərzinə təsir etmək, ictimai diskursun gündəliyini müəyyən etmək sahəsində böyük potensialı ilə şərtlənir. Redaksiyalar və

jurnalistlər, media subyektləri gender bərabərliyinin təmin olunması, məişət zorakılığına qarşı mübarizə məsələləri ilə əlaqədar tutduqları mövqe, sərgilədikləri yanaşma və fəaliyyətlərinin cəmiyyətə, qurbanlara, fərdlərə potensial təsirindən xəbərdar olmalıdırlar. Redaksiyalar və jurnalistlər, media subyektləri öz fəaliyyətləri, yanaşmaları ilə bu sahədə müsbət dəyişikliyin təşviqinə kömək edə, eyni zamanda neqativ stereotipləri gücləndirə, zorakılıq mədəniyyətinə xas normaları, düşüncə tərzini təbliğylə mütərəqqi təşəbbüslərin, islahatların təsirini azalda bilərlər. İctimai etimad, inam islahatlar, gender problematikası ilə əlaqədar yeni təşəbbüslər, ideyalar, təcrübələrin uğur qazanmasının əsas şərtlərindən biridir. Eyni zamanda məişət zorakılığı hallarına qarşı mübarizədə səlahiyyətli dövlət orqanlarına və ictimai təşkilatlara etimad, onların müsbət reputasiyası erkən müdaxilə, profilaktika tədbilərinin uğurla həyata keçirilməsi, ictimai dəstəyin miyqasının genişləndirilməsi, bütün maraqlı tərəflərin fəal iştirakçılığını şərtləndirir . Bu çox vacib məsələlərdə redaksiyalar və jurnalistlər, media subyektlərinin məsuliyyətli davranışı müsbət nəticələr üçün əsas şərtlərdən biridir. Məsuliyyətli və cavabdeh davranış dedikdə gender bərabərliyinin təmin olunması, məişət zorakılığına qarşı mübarizə məsələləri ilə əlaqədar olaraq sağlam informasiya mühitinin yaradılması, ictimai maraqların əsas götürülməsi, nəzərə alınmalı olan etik mülahizələrin rəhbər tutulması, qanunvericliyin, peşəkar etik kodekslərin insan hüquqları, şəxsi və ailə həyatına hörmət hüququ, peşəkar fəaliyyətlə əlaqəli nəzərdə tutduğu normalara əməl edilməsi, qurbanlar, digər əlaqəli şəxslərlə bağlı konfedensiallığın qorunması, dürüst və tendensiyasız, obyektiv yanaşma sərgilənməsi başa düşülür.

Son 15 ildə gender bərabərliyi və məişət zorakılığına qarşı mübarizə məsələlərində medainın rolu, cavabdehliyi və məsuliyyəti ilə bağlı müzakirələr davamlı şəkildə aparılıb. 2011-ci il 25 yanvarda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi BMT-nin Əhali Fondu ilə birgə "Məişət zorakılığı ilə mübarizədə KİV-in rolu" mövzusunda dəyirmi masa müzakirələri təşkil edib. Müzakirələrdə Azərbaycan təcrübəsində ilk dəfə 7 televiziya kanalında və 18 qəzetdə bu problemə həsr olunan məlumatların monitorinqinin nəticələri açıqlanıb. Bildirilib ki, 1 il ərzində TV-lərdə bu mövzuda 110 veriliş və reportaj yayımlanıb. Qəzetlərdə isə 142 məlumat və araşdırma yazılar dərc olunub. Ümumi qənaətə görə, məişət zorakılığı halları, bu zəmində cinayətlər TV-lərdə emosional şəkildə təqdim olunur. Bu şəkildə təqdim olunması insanlarda psixoloji problemlər yaradır. Məişət zorakılığının kriminal hadisə kimi təbliğ edilməsi yanlış

yanaşma kimi dəyərləndirilib. Peşəkarlığın az olması, bilik və bacarıqların artırılmasına olan ehtiyaclar əsas problemlər kimi qeyd olunub[1].

2018-ci ildə Avropa Şurasının "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsi əsasında "Azərbaycan jurnalistlərinin peşə davranışı qaydaları"na dəyişikliklər edilmiş, jurnalist fəaliyyətini həyata keçirərkən gender bərabərliyi prinsiplərinə riayət olunması ilə bağlı yeni vəzifələr müəyyən edilmişdir. 2019-cu ildə bu layihə çərçivəsində Bakı şəhərində və regionlarda kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə söz və mətbuat azadlığının təmini, mətbuatda gender bərabərliyi, jurnalistlərin peşə hüquq mədəniyyəti mövzularında təlimlər keçirilmiş və bu təlimlərdə Ombudsman aparatının əməkdaşı təlimçi ekspert qismində iştirak etmişdir[2].

Bunlarla yanaşı 20-21 may 2021-ci ildə Avropa Şurasının Bakı ofisinin təşkilatçılığı, Azərbaycan Mətbuat Şurasının (MŞ) dəstəyi ilə həyata keçirilən "Azərbaycan mediasında gender bərabərliyi və digər etik standartların təşviqi" layihəsi çərçivəsində "Gender əsaslı zorakılıq hallarının işıqlandırılması zamanı jurnalistlər üçün etik standartlar" mövzusunda jurnalistlər üçün iki günlük təlim keçirilib[3].

Eləcə də, 2021-ci "Azərbaycanda Məişət Zorakılığı Qurbanlarının Təhlükəsizliyinin və onlara Dəstəyin Təmin edilməsi üçün Dövlət Qurumlarının və Yerli Səviyyədə İstiqmətləndirmə Mexanizmlərinin Potensialının Gücləndirilməsi" adlı Aİ Tvinninq layihəsi çərçivəsində " Məişət zorakılığının aradan qaldırılmasına dair təlim vəsaiti: cəmiyyətdə münasibət və davranışları necə dəyişməli" adlı vəsait nəşr edilib. Vəsait  Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, müvafiq nazirliklərin, monitorinq qruplarının, vətəndaş cəmiyyəti təşkilatlarının ictimaiyyətlə əlaqələr üzrə əməkdaşları üçün nəzərdə tutulub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə 2022-ci il 2-3 iyun tarixlərində media nümayəndələri üçün peşəkarlığın artırılması məqsədi ilə gender bərabərliyi və ayrı-seçkilik mövzularında "Mediada gender bərabərliyi və peşəkarlıq" adlı təlim keçirilib.

Bələdçi bu təşəbbüslərin davamı kimi əldə olunmuş təcrübələri nəzərə almaqla, eyni zamanda qabaqcıl beynəlxalq praktika, nümunələrin əsasında medainın, jurnalistlərin rolu, cavabdehliyi

---

[1] https://az.trend.az/azerbaijan/society/1881634.html
[2] https://meclis.gov.az/documents/hesabat/05.03.2019.pdf
[3] https://ikisahil.az/post/220370-gender-esasli-zorakiliq-hallarinin-ishiqlandirilmasi-zamani-jurnalistler-uchun-etik-standartlar

və məsuliyyəti ilə bağlı etik və peşə standartları, milli qanunvericiliyin tələblərini əks etdirməklə media icmasının üzvlərinə gender bərabərliyi, məişət zorakılığına qarşı mübarizə məsələləri ilə bağlə həssas və məsuliyyətli şəkildə məlumat verməkdə kömək etmək məqsədi daşıyır.

## Bələdçinin məzmunu

**Bələdçi üç hissədən ibarətdir.**

**I. hissə "Məişət zorakılığı hallarının mediada işıqlandırılması zamanı etik mülahizələr və prinsiplər" adlanır**. Bu hissədə məişət zorakılığı hallarının mediada işıqlandırılmasında etik mülahizələr, onların nəzəri və hüquqi əsasları barədə məlumat veriləcək. Media etikasının bünövrəsini təşkil edən müxtəlif nəzəri yanaşmalar, eləcə də hüquqi əsaslar izah ediləcək.

**II. hissə "Məişət zorakılığı hallarının mediada işıqlandırılmasında media subyektlərinin, jurnalistlərin rolu, cavabdehliyi və məsuliyyəti ilə bağlı beynəlxalq və milli qanunvericiliyin tələbləri" adlanır.** Bu hissədə mediada məişət zorakılığı hallarının işıqlandırılması ilə bağlı media subyektlərinin, jurnalistlərin rolu, cavabdehliyi və məsuliyyəti ilə əlaqədar ümumi hüquqi çərçivəni müəyyən edən beynəlxalq konvensiyalar, milli qanunvericliyin müddəalarına həsr olunub.

**III. hissə "Məişət zorakılığı hallarının mediada işıqlandırılması və peşəkar kodekslərin tələbləri. Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları" adlanır**. Bu hissədə jurnalistika və media sahəsində ixtisaslaşmış əsas beynəlxalq təşkilatlar, peşəkar assosasiyaların peşəkar etika ilə bağlı kodeksləri barədə məlumat veriləcək. Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydalarının nəzərdə tutuduğu prinsip və öhdəliklərdən bəhs ediləcək.

**IV. hissə "Jurnalistlər üçün tövsiyyələr" adlanır.** Bu tövsiyyələr beynəlxalq təcrübənin təhlili və bir çox jurnalist etika kodeksi və bələdçilərinin təhlili əsasında hazırlanıb. Tövsiyyələr məişət zorakılığı hallarının obyektiv işıqlandırılması, dinləyicilərə və izləyicilərə bunun nə qədər geniş yayıldığını, kimlərin əziyyət çəkdiyini, bu halların qarşısının alınmasına necə kömək edə biləcəyini , jurnalist materiallarının zərərçəkənlərin hüquq və ləyaqətinə hörmət ediləcək şəkildə hazırlanmasına kömək etmək məqsədilə hazırlanıb.

# I.Məişət zorakılığı hallarının mediada işıqlandırılması zamanı etik mülahizələr və prinsiplər

**Media subyektləri, redaksiyalar, jurnalistlər niyə məişət zorakılığı hallarının işıqlandırılmasında etik mülahizələri, prinspləri rəhbər tutmalıdırlar? Bu öhdəlik hansı səbəblərdən yaranır və niyə əhəmiyyətlidir?**

Mediada məişət zorakılığı hallarının işıqlandırılmasında etik mülahizələrin və prinsiplərin rəhbər tutulmasını zəruri edən əsas nəzəri əsaslardan biri sosial-konstruktivist yanaşmadır. Bu yanaşma medianın məişət zorakılığı ilə bağlı ictimai qavrayışın formalaşmasında mühüm rol oynadığını göstərir. Media məişət zorakılığı ilə bağlı zərərli stereotipləri gücləndirə və qurbanların özlərinin günahkar sayılmasını şərtləndirə biləcək kontent yarada bilər. Sosial konstruktivizmin nöqteyi-nəzərini dəstəkləyən araşdırma nümunəsi kimi Saunders, B. və Edvards, C. (2009). "İngiltərədəki məişət zorakılığının işıqlandırılmasında medianın rolunun araşdırılması" tədqiqatını göstərmək olar. Tədqiqata əsasən media tez-tez məişət zorakılığı hallarını elə işıqlandırır ki, əsas diqqət məişət zorakılığına səbəb olan daha geniş sosial və mədəni amillərə deyil, cinayətkarın və qurbanın fərdi hərəkətlərinə yönəlir. Bu cür çərçivə məişət zorakılığı ilə bağlı zərərli stereotipləri və anlaşılmazlıqları artıra, zorakılıqdan zərər çəkənləri günahlandırmağa kömək edə bilər[4].

**!**

*Media etikası həssas qrupların qorunması, onlarla bağlı baş verənlərin, həmçinin məişət zorakılığı hallarının mediada işıqlandırılmasının fərdlərə və bütövlükdə cəmiyyətə potensial təsiri ilə bağlı məsələləri də əhatə edir.*

Mediada məişət zorakılığı hallarının işıqlandırılmasında etik mülahizələr üçün bir neçə nəzəri əsas var. Əsas nəzəri əsaslardan biri sosial-konstruktivist baxışdır və medianın məişət zorakılığı ilə bağlı ictimai qavrayışın formalaşmasında mühüm rol oynadığını göstərir. Bu baxışa görə, media zərərli stereotipləri əbədiləşdirə və qurbanların günahlandırılmasına kömək edə biləcək müəyyən ailə zorakılığı povestləri yaradır.

Feminist nəzəriyyə isə məişət zorakılığının əsasını ailədə, cəmiyyətdə kişi və qadınlar arasında güc disbalansı ilə izah edir. Bu nəzəriyyəyə görə, media məişət zorakılığından zərər çəkənləri günahlandırmağa zəmin yaradan zərərli stereotipləri gücləndirə bilər. Bu öz növbəsində qadına

[4] Guidelines on Media Reporting on Violence against Women Journalists against Violence against Women https://www.undp.org/serbia/publications/guidelines-media-reporting-violence-against-women

qarşı zorakılıq mədəniyyətini möhkəmlədir, qadınları daha gücsüz hala gətirir. Media feminist yanaşma tətbiq etdikdə isə məişət zorakılığının əsas səbəblərini izah etməklə, cəmiyyətin diqqətinə çatdırmaqla düşüncə dəyişikliyinə və gender bərabərliyinin təşviqinə kömək edə bilər.

Məişət zorakılığı diqqətli və məsuliyyətli işıqlandırma tələb edən mürəkkəb və həssas bir problemdir. Etik mülahizələr və prinsiplər hadisələrin məsuliyyətli və həssas şəkildə işıqlandırılması üçün zəmin yaradır, zərərşəkənlərin ləyaqətinə və onlarla bağlı məlumatların konfendensiallığının qorunmasını və ictimaiyyətə dəqiq və qərəzsiz məlumatların verilməsini təmin edir.

Etik mülahizələri və prinsipləri jurnalist peşəsinin və medianın sosial rolunun məxsusiliyi də zəruri edir. Peşə əxlaqı nəzərdə tutur ki, həqiqəti söyləmək və ya insan hüquqlarına hörmət etmək mahiyyət etibarilə yaxşıdır və edilməlidir, yalan danışmaq və ya kiminsə hüquqlarını pozmaq isə mahiyyət etibarilə səhvdir və qarşısı alınmalıdır. Media etikası kontekstində bu, o deməkdir ki, jurnalistlər potensial nəticələrindən asılı olmayaraq həqiqəti çatdırmaq və fərdlərin hüquqlarına və ləyaqətinə hörmət etmək məcburiyyətindədirlər.

Etik davranış yalnız qaydalara riayət etmək və ya yaxşı nəticələr əldə etmək deyil, media etikası kontekstində jurnalistlərdən həm də məişət zorakılığından zərərçəkənlərə qarşı empatiya və həssaslıqla yanaşmağı tələb edir.

Media etikası həssas qrupların qorunması, onlarla bağlı baş verənlərin, həmçinin məişət zorakılığı hallarının mediada işıqlandırılmasının fərdlərə və bütövlükdə cəmiyyətə potensial təsiri ilə bağlı məsələləri də əhatə edir.

Elmi-nəzərə ədəbiyyatın və müxtəlif əyani vəsaitlərin, bələdçilərin təhlili və ümumiləşdirilməsi əsasında məişət zorakılığı hallarının mediada işıqlandırılmasının fərdlərə və bütövlükdə cəmiyyətə neqativ təsirinin qarşısını almaq üçün aşağıdakı etik prinsipləri qeyd edə bilərik:

## 1. Zərərçəkənlərin şəxsi məlumatlarının qorunması və ləyaqətinə hörmət

- **Məişət zorakılığı halları haqqında materillar, informasiyalar hazırlanan zaman, xüsusilə də zərərçəkənlərin şəxsi məlumatları açıqlandıqda, zorakılıq törətmiş şəxs və şəxslər müdaxilə edə bilər və qurbanlar üçün yenidən travma yarada bilər.**

Jurnalistlər və media subyektlərinin zərərçəkənlərin şəxsi həyatına və ləyaqətinə hörmət etmələri və onların razılığı olmadan şəxsiyyətini müəyyən edən hər hansı məlumatı dərc

etməmələri çox vacibdir. Bura onların adları, fotoşəkilləri və şəxsiyyətlərini bəlli edə biləcək hər hansı digər detallar daxildir.

- **Zərərçəkənlərin qurbanlarının şəxsi toxunulmazlıq hüququ və şəxsi məlumatlarının açıqlanmasına nəzarət etmək hüququ vardır.**

Jurnalistlər və media subyektləri şəxsi məlumatlarından materiallarında istifadə etməzdən əvvəl onların razılığını almalıdırlar. Əgər zərərçəkənlər təhlükəsizlik baxımından razılıq verə bilmirlərsə, jurnalist və media subyektləri onların xəbərlərinin zərərçəkənlərə ziyan vurma riski yaratmaması üçün əlavə diqqətli olmalıdırlar.

## 2. Sensasiyadan və zərərçəkəni günahlandırmaqdan çəkinmək

- **Məişət zorakılığı halları haqqında materillar, informasiyalar hazırlananda həssas və məsuliyyətli davranılmalıdır ki, bu məsələni sensasiyaya çevirməsin və ya əhəmiyyətini azlatmasın**. Məişət zorakılığı hallarının sensasiyaya çevrilməsi və ya əhəmiyyətinin azaldılması zərərçəkənlər üçün daha çox ziyana və travmaya səbəb ola bilər və gender əsaslı zorakılıq haqqında zərərli stereotipləri gücləndirər. Sensasiya hadisələrin şişirdilmiş, şok və ya emosional yüklənmiş şəkildə təqdim edilməsdir. Sensasiyalı reportajlar zərərli stereotipləri gücləndirə, problemin əsl səbəblərini diqqətdən kənarda saxlaya, zərərçəkənlər ətrafında lüzumsuz müzakirələrə yol aça bilər.

- **Hadisə ilə bağlı faktlara diqqət yetirmək, ehtimallar irəli sürməkdən çəkinmək daha doğru olardı**.

Bu yanlış təsəvvürlərin formalaşmasının qarşısını almaqla, obyektiv qənaət yaranmasına töhvə verəcək. Jurnalistlər emosional və ya sensasiya tərzində təqdimata xas ifadələrə yol verməkdən qaçaraq faktlar əsasında məişət zorakılığı halları haqqında məlumat verməlidir. Məsələn, sensasiya kimi təqdimat tərzinə, üslubuna xas və zərərçəkənlərə ziyan vura biləcək "dəhşətli" və ya "iyrənc", “ikrah doğuran” kimi sözləri işlətməkdən çəkinmək deməkdir.

- **Materialların hazırlanmasında başqa bir vacib məqam zərərçəkənlərin ittiham olunmasının yolverilməzliyidir.**

Zərərçəkənləri günahlandırmaq neqativ stereotipləri və gender bərabərliyinə mənfi münasibəti gücləndirir, cinayətkarı hərəkətlərinə görə məsuliyyətdən, ictimai qınaqdan yayaınmağa kömək edir. Eyni zamanda bu yanaşma zərərçəkənlərin kömək istəmələrinə

və ya onlara qarşı zorakılıq təhlükələri, təhdidləri barədə məlumat vermələrinə maneə törədə bilər.

- **Zərərçəkənlərə qarşı ittihamların qarşısını almaq üçün jurnalistlər cinayətkarın hərəkətlərinə və zorakılığa görə onların məsuliyyətinə diqqət yetirməlidirlər.** Zərərçəkəndən məruz qaldığı zorakılığa görə məsuliyyət daşıması barədə rəy yarada biləcək ifadələrdən çəkinmək vacibdir. (Məsələn, niyə ayrılmadıqlarını soruşmaq və ya hansısa formada zorakılığa haqq qazandıra biləcək fikirlər səsləndirmək, yazmaq). Jurnalistlər məişət zorakılığı hallarını elə işıqlandırmalıdırlar ki, məsuliyyət birbaşa günahkarın üzərinə qoyulsun və ədalətli yanaşmaya ehtiyac vurğulansın.

## 3. Dəqiqlik və obyektivliyin təmin edilməsi

- **Dəqiqlik və obyektivlik jurnalistikanın əsas prinsipləridir və onlar məişət zorakılığı halları ilə bağlı materiallar hazırlayarkən xüsusilə vacibdir.**

Jurnalistlər və media subyektləri öz xəbərlərində dəqiq və təsdiq edilə bilən məlumatlara əsaslanmalıdırlar, xəbər verməzdən əvvəl faktları və mənbələri yoxlamalıdırlar. Dəqiqlik məlumatların həqiqi etibarlılığını və mənbələrin yoxlanılmasını əhatə edir.

- **Dürüstlük hadisələrin balanslı və qərəzsiz işıqlandırılmasını təmin etmək, bütün tərəflərə fikirlərini bildirmək üçün bir fürsət verməkdir.**

Xəbərlərin verilməsində obyektivlik jurnalistlərdən və media peşəkarlarından tələb edir ki, bütün aidiyyəti tərəflərə dinlənilmək və hadisə ilə əlaqədar öz versiyasını təqdim etmək imkanı versinlər. Buraya zərərçəkənlər, cinayəti törədənlər, şübhəlilər, məişət zorakılığı əməlinin törədilməsi ilə əlaqəli hər hansı digər tərəflər daxildir. Materialın balanslaşdırılmış olmasını və hər hansı bir tərəfə qarşı qərəzli olmamasını təmin etmək vacibdir.

## II. Məişət zorakılığı hallarının mediada işıqlandırılmasında beynəlxalq və milli qanunvericiliklə müəyyənləşmiş tələblər.

İnsan hüquqları sahəsində tövsiyə xarakterli beynəlxalq konvensiyalar, sənədlər əsas hüquqların və azadlıqların bütün insanlara xas olduğunu, hər bir insan üçün ayrılmaz olduğunu və hər kəsə eyni dərəcədə tətbiq olunduğunu və butun insanların öz ləyaqətləri və huquqları etibarilə azad və bərabər doğulduğunun unversallığını  təsbit edirlər.[5]

İnsan hüquqları sahəsində tövsiyə xarakterli beynəlxalq konvensiyalar, sənədlər köməkçi hüquq mənbəyi kimi böyük əhəmiyyətə malikdir. Adətən, dövlətlər bu standartlara riayət etməyə çalışır, onları öz qanunvericiliyinə daxil edirlər.

Qeyd edilməlidir ki, Konstitisiyanın 148-ci maddəsi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi elan edir.

### BMT Nizamnaməsi

İnsan hüquqlarının universal səviyyədə müdafiəsi ideyası ilk dəfə olaraq məhz BMT Nizamnaməsində öz əksini tapmışdır. Burada «irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi  və həvəsləndirilməsin BMT-nin əsas məqsədlərindən biri kimi bəyan edilir (1-ci

### Universal standartlar

Artıq bu gün bu hüquqlar geniş ictimaiyyət tərəfindən insan hüquqları sahəsində hər kəsin riayət etməli və qorumalı olduğu əsas normalar, standartlar kimi tanınıb. Bu sənədlər ədalətsizliklə, ayrı-seçkiliyə, zorakılığa, təcüvüzə, pis rəftara və işgəncəyə, azadlığın qanusnuz məhdudlaşdırılmasına məruz qalması ilə mübarizə apardığımız və hər kəsin, hamının insan haqlarına riayət etmək üçün səy göstərdiyimiz zaman dayaq rolunu oynamağa davam edir.

Qabaqcıl beynəlxalq təcrübə media subyektləri və jurnalistlər tərəfindən ümumilikdə və xüsusən məişət zorakılığı hallarının işıqlandırılması zamanı bu standartların nəzərə alınması, media etikası və peşəkarlıq prinsiplərinə əməl edilməsinin yaxşı nümunəsi kimi bəyan edir.

[5] http://www.aak.gov.az/upload/dissertasion/huq/huq_n_agr_29_03_16.pdf (BEYNƏLXALQ VƏ DÖVLƏTDAXİLİ HÜQUQDA MƏİŞƏT ZORAKILIĞINA QARŞI MÜBARİZƏ PROBLEMİ)

maddə).

«Bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək vcrilməsi» (55-ci maddə) və bunun üçün BMT ilə birgə və ya müstəqil tədbirlər görülməsi (56-cı maddə) dövlətlərin üzərinə vəzifə kimi qoyulur.

## Umumdünya İnsan Hüquqları Bəyannaməsi [6]

1948-ci il dekabrın 10-da BMT Baş Məclisinin 217 (III) nömrəli qətnaməsi ilə Umumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul edildi. "Ümumdünya İnsan Hüquqları Bəyannamə"nin 1-ci maddəsində göstərilir ki, bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar. Hər bir şəxsin azadlıq və şəxsi toxunulmazlıq hüququ onun dünyaya gəlməsi ilə ona mənsub olan əsas təbii hüquqlarıdır. Bu hüquqların qanuni əsas və zərurət olmadan məhdudlaşdırılması yolverilməzdir.

## Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt [7]

16 dekabr 1966-cı il tarixində qəbul edilmiş və 23 mart 1976-cı il tarixində qüvvəyə minmişdir. Paktın 2-ci maddəsinin 1-ci bəndi iştirakçı dövlətlərin üzərinə öz ərazisi hüdudları daxilində və yurisdiksiyası altında olan bütün şəxslərin həmin Paktda nəzərdə tutulan hüquqlarına cinsi də daxil olmaqla digər əlamətlər əsasında heç bir fərq qoymadan hörmət etmək və onların bu hüquqlarını təmin etmək öhdəliyi qoyur.

- ✓ **3-cü maddədə göstərilir ki, iştirakçı dövlətlər "Paktda nəzərdə tutulan bütün mülki və siyasi hüquqlardan kişilərin və qadınların bərabər hüquqda istifadə etmələrini təmin etməyi öhdələrinə götürürlər."**

Paktın 26-cı maddəsində deyilir: "Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkiliyə yol verilmədən qanunla bərabər müdafiə olunmaq hüququna malikdirlər. **Bununla bağlı ayrı-seçkiliyin bütün növləri qanunla qadağan olunmalıdır və qanun istənilən əlamətə: irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və ya digər halları ilə bağlı əlamətlərə görə ayrı-seçkiliyə qarşı bütün şəxslərə bərabər və səmərəli müdafiə təminatı verməlidir."**

[6] https://www.coe.int/az/web/compass/the-universal-declaration-of-human-rights-full-version-
[7] https://e-qanun.az/framework/2708

## Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiya[8]

*Konvensiya qadın hüquqlarının beynəlxalq müdafiəsinə yönəlik mexanizmlər müəyyən edir.* ***Konvensiyanın 1-ci maddəsi qadına qarşı ayrı-seçkiliyin anlayışını müəyyən edir:*** *"Bu Konvensiyaya görə, "qadınlara qarşı ayrı-seçkilik" qadınların ailə vəziyyətindən asılı olmayaraq kişi və qadınların hüquq bərabərliyi əsasında və siyasi, iqtisadi, sosial, mədəni, mülki və ya hər hansı digər sahədə insan hüquqlarının və əsas azadlıqlarının tanınmasının, istifadə edilməsinin və ya həyata keçirilməsinin əngəllənməsinə və ya heçə endirilməsinə səbəb olan və ya bu məqsədi daşıyan, cinsi əlamətə görə hər hansı fərqləndirmə, istisna, yaxud məhdudiyyət deməkdir."*

XX əsrin ortalarından etibarən ümumi insan hüquq və azadlıqları aspektində qadınların kişilərlə hüquq bərabərliyinin təsbit olunması ilə yanaşı, yalnız qadınlara aid olan bir sıra əlavə hüquq və azadlıqlara dair beynəlxalq standartların təsbit olunması prosesi başladı. BMT 20 dekabr 1952-ci ildə Qadınların siyasi hüquqları haqqında Konvensiyanı, 29 yanvar 1957-ci ildə Ərdə olan qadının vətəndaşlığı haqqında Konvensiyanı, 7 noyabr 1967-cil ildə Qadına qarşı ayrı-seçkiliyin aradan qaldırılması Bəyannaməsini, **18 dekabr 1979-cu ildə Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyanı qəbul etdi.**

**Qadın hüquqlarının müdafiəsinə yönəldilmiş beynəlxalq sənədlər içərisində "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" BMT Konvensiyası xüsusi əhəmiyyətə malikdir.**

Bu gün Konvensiya Uşaq Hüquqları Konvensiyasından sonra dünyada ən çox ratifikasiya olunmuş beynəlxalq müqavilədir. **Azərbaycan Respublikası 1995-ci il 10 iyul tarixində Konvensiyanı ratifikasiya etmişdir.**

Konvensiyadan əvvəl qəbul olunmuş beynəlxalq müqavilələrdə ayrı-seçkilik anlayışı yalnız dövlət orqanları tərəfindən törədilmiş ayrı-seçkiliyi əhatə edir. Lakin qadın hüquqları sahəsində hüquqlar daha çox özəl, qeyri-dövlət sferasında məhdudlaşdırıldığına görə Konvensiyanın

[8] https://e-qanun.az/framework/56

effektiv ola bilməsi üçün yalnız dövlət orqanları tərəfindən deyil, fərdlər və özəl müəssisələr tərəfindən törədilən ayrı-seçkilik də ləğv edilməlidir. Konvensiyada "qadınlara qarşı ayrı-seçkilik" anlayışına verilən tərifin əhatə dairəsi "və ya hər hansı digər sahədə" ifadəsinin daxil edilməsi ilə daha da genişləndirilir. Bu mövqe Konvensiyanın 2(e) maddəsi ilə möhkəmləndirilir.

- ***Konvensiyanın 2(e) maddəsinə qeyd edilir ki, Konvensiya yalnız dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları tərəfindən törədilən ayrı-seçkiliyi deyil, həm də hər hansı bir şəxs, təşkilat yaxud müəssisə tərəfindən yol verilən ayrı-seçkiliyi də qadağan edir.*** *Bu ona görə beynəlxalq müqavilənin həm də özəl sferaya nüfuz etməsi, dövlətin onun yurisdiksiyası daxilində hər hansı bir şəxsin, təşkilat və ya müəssisənin qadınlara qarşı ayrı-seçkiliyə yol verməməsinə nəzarət etmək öhdəliyini müəyyən etməsi xüsusilə əhəmiyyətlidir. Çünki əks təqdirdə qadın hüquqlarının müdafiəsinə yönəlmiş bir beynəlxalq müqavilənin effektiv olması, real olaraq ayrı-seçkiliyin aradan qaldırılmasına nail olması mümkün deyil.*

Konvensiyanın 17-ci maddəsi əsasında onun "həyata keçirilməsinin gedişini yoxlamaq" məqsədi ilə yaradılmış və üzvləri vətəndaşı olduqları dövlətdən asılı olmadan çalışan Qadınlara qarşı ayrı-seçkiliyin qadağan edilməsi üzrə Komitə (CEDAW Komitəsi) bir sıra ümumi xarakterli təklif və tövsiyələri ilə Konvensiyanın ayrı-ayrı maddələrinə aydınlıq gətirmişdir. Konvensiyanın 21-ci maddəsində Komitənin ümumi xarakterli təklif və tövsiyələr vermək səlahiyyəti qeyd olunur.

- Komitə qəbul etdiyi ümumi tövsiyələrlə Konvensiyanı yaradıcı şərh edərək oradakı boşluqları doldurmağa çalışmışdır ki, bu boşluqlardan biri də qadınlara qarşı zorakılıqla bağlıdır. Komitənin 19 saylı ümumi tövsiyəsinin 6-cı bəndində Konvensiyanın 1-ci maddəsindəki qadınlara qarşı ayrı-seçkiliyin tərifinin qadın məhz qadın olduğu üçün ona qarşı yönəldilən və ona mənfi təsir göstərən zorakılığı da əhatə etdiyi vurğulanır. Bura fiziki, əqli və ya cinsi xəsarət və ya işgəncə, bu əməllərlə təhdid etmə, zorlama və azadlığın digər formalarda məhdudlaşdırma halları da daxil edilir. 19 saylı

ümumi tövsiyənin 7-ci bəndində qadına qarşı zorakılıq - qadınların "kişi və qadınların hüquq bərabərliyi əsasında hüquq və azadlıqlardan istifadə etmək qabiliyyətinə ciddi şəkildə mane olan ayrı-seçkilik forması" kimi müəyyən edilir. Komitə qeyd edir ki, Konvensiyanın 1-ci maddəsi əsas hüquq və azadlıqların həyata keçirilməsinə mane olan və ya bu məqsədi daşıyan bütün gender əsaslı ayrı-seçkiliyi qadağan edir. Öz növbəsində isə qadına qarşı zorakılığın bütün formaları qadının insan hüquq və azadlıqlarından effektiv istifadə etməsinə mane olur, onun insan hüquq və azadlıqlarını məhdudlaşdırır.

Komitənin 19 saylı ümumi tövsiyəsi Konvensiyanın dövlətlərdən qadına qarşı "hər hansı şəxs" tərəfindən törədilən ayrı-seçkiliyi yox etmək üçün zəruri addımlar atmağı tələb edən 2-ci maddəsinə də diqqət yetirir və göstərir ki, 2-ci maddəyə görə dövlətlər **"hüquqların pozulmasının qarşısını almaq və ya zorakılıq aktlarını araşdırmaq, cəzalandırmaq və kompensasiya təmin etmək üçün lazımi qayğı" göstərmədikdə fiziki şəxslər tərəfindən törədilən "şəxsi əməllər"ə görə beynəlxalq məsuliyyət daşıyırlar.**

## Avropa İnsan Hüquqları Konvensiyası[9]

İnsan hüquqlarının və əsas azadlıqlarının müafiəsi haqqında 1950-ci il Avropa Konvensiyası (Avropa İnsan Hüquqları Konvensiyası) Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 4 noyabr 1950-ci ildə qəbul edilmiş və 3 sentyabr 1953-cü ildə qüvvəyə minmişdir. Bu Konvensiya Avropanın ən əsas insan hüquqları müqaviləsidir.

Konvensiya və onun Protokolları Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2001-ci ilin dekabr ayının 25-də təsdiq edilmişdi.

- ***Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsi həmin Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə sahəsində cinsi mənsubiyyət də daxil olmaqla digər əlamətlərə görə ayrı-seçkiliyi birbaşa qadağan edir: "Bu Konvensiyada təsbit olunmuş hüquq və***

[9] https://www.coe.int/az/web/compass/the-european-convention-on-human-rights-and-its-protocols

***azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiy- yət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.***

Avropa Insan Hüquqları Konvensiyasının 12 saylı Protokolu 4 noyabr 2000-ci ildə qəbul edilmiş və 1 aprel 2005-ci həmin əlamətlərə görə hər hansı dövlət hakimiyyəti orqanı tərəfindən ayrı-seçkiliyə məruz qalmasını qadağan edir.

## İstanbul Konvensiyası[10]

Avropa Şurasının Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizəyə dair Konvensiyası (İstanbul Konvensiyası) 11 may 2011-ci il tarixində qəbul edilmiş və 1 avqust 2014-cü il tarixində qüvvəyə minmişdir. Azərbaycan Respublikası hələ bu Konvensiyanı imzalamamışdır. İstanbul Konvensiyası qadına qarşı zorakılığın bütün formalarının qarşısının alınması və qadağan olunması sahəsində qəbul edilmiş ən hərtərəfli beynəlxalq müqavilədir. Konvensiyanın əsas hədəfi zorakılığın qarşısının alınması, qurbanların müdafiəsi, zorakılıq törədənlərin məsuliyyətə cəlb olunması və milli səviyyədə inteqrasiya olunmuş siyasətin formalaşmasıdır. İstanbul Konvensiyası iştirakçı dövlətlər tərəfindən Konvensiyanın implementasiyasını qiymətləndirmək və təkmilləşdirmək məqsədi ilə iki monitorinq mexanizmi müəyyən edir: Qadına qarşı zorakılığa və məişət zorakılığına qarşı müstəqil Ekspertlər Qrupu (GREVİO) və Tərəflər Komitəsi.

**Qadınların konstitusion-hüquqi statusu ilk növbədə Azərbaycan Respublikası Konstitusiyasının "bərabərlik hüququ" adlı 25-ci maddəsi ilə müəyyən olunur**. Həmin maddəyə əsasən hamı qanun və məhkəmə qarşısında bərabərdir; kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

Dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

[10] https://rm.coe.int/brochure/1680a07dd3

## Azərbaycan Respublikasının  Konstitusiyası[11]

Konstitusiya daha sonra digər əlamətlərlə yanaşı insan və vətəndaş hüquqlarını və azadlıqlarını cinsi mənsubiyyətə görə məhdudlaşdırmağı qadağan edir. Həmin əsasa görə heç kəsə zərər vurula biməzliyi, güzəştlər və ya imtiyazlar verilə bilməzliyi, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməzliyi müəyyən edilir. Bütövlükdə, Konstitusiyanın 25-ci maddəsi qadının kişi ilə hüquq bərabərliyini təsbit edir və bu bərabərliyin ən ümumu təminatlarını nəzərdə tutur, bununla da milli hüquq sistemində qadının hüquqi statusunun əsaslarını prinsipial şəkildə müəyyən edir.

Konstitusiyanın insan və vətəndaş hüquqlarını və azadlıqlarını təsbit edən digər maddələrinin demək olar ki, hamısı cinsi əlamətə görə, yəni kişi ilə qadın arasında heç bir fərq müəyyən etmədən hər kəsin və ya Azərbaycan Respublikası vətəndaşının hüquqlarını və azadlıqlarını təsbit edir. Bu isə o deməkdir ki, Konstitusiyanın müvafiq maddələrində təsbit olunmuş hüquqlar və azadlıqlar həm kişi, həm də qadın cinsindən olan bütün insanlara və vətəndaşlara eyni dərəcədə şamil olunur.

**Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsi şəxsi toxunulmazlıq hüququnu müəyyən edir:**

• ***Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.***

• *Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.*

! ***Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.***

[11] https://www.e-qanun.az/framework/897

*• Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.*

*• Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.*

*• Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır.*

- ***Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz.***

Azərbaycan Respublikasının Konstitusiyasının 50-ci maddəsinə əsasən hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir

**AR Cinayət Məcəlləsinin[12] 156-cı maddəsi şəxsi toxunulmazlıq hüququnu pozma ilə bağlı sanksiya və cəza tədbirlərini ehtiva edir.**

✓ Şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılması, habelə satılması və ya başqasına verilməsi qanunsuz toplanılması —

[12] https://www.e-qanun.az/framework/46947

1000 manatdan 2000 manatadək miqdarda cərimə və ya 240 saatdan 480 saatadək ictimai işlər və ya 1 ilədək müddətə islah işləri ilə cəzalandırılır.

**Eyni əməllər:**

• vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

• məsafədən idarə edilən pilotsuz uçan aparatlardan istifadə etməklə törədildikdə – 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 2 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Konstitisiyanın 12-ci maddəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir, insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Başqa sözlə, insan və vətəndaş olmaq etibarilə qadınların hüquqları dövlətimizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilməlidir.

**Qeyd edilməlidir ki, Konstitisiyanın 148-ci maddəsi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi elan edir.** Konstitisiyanın 151-ci maddəsinə əsasən isə Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

## “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu[13]

Qadınların konstitusion-hüquqi statusu 10 oktyabr 2006-cı ildə qəbul edilmiş “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə daha da konkretləşdirilir və dəqiqləşdirilir. Bu qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsi kimi təsbit olunur.

[13] https://e-qanun.az/framework/12424

Qanuna əsasən qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyəti gender bərabərliyi hesab olunur. Bu qanun qadınların kişilərlə hüquq bərabərliyinin təsbit edilməsi ilə yanaşı, insan hüquqlarının həyata keçirilməsində qadınlar və kişilər üçün bərabər şərait və təminatlar yaradılmasına yönəldilib.

- ✓ *Həmin Qanun ilk növbədə cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin anlayışı və formalarını müəyyən edir. Qanuna əsasən cinsi mənsubiyyətə görə ayrı-seçkilik dedikdə, seksual qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük başa düşülür. Seksual qısnama isə əmək və ya xidmət münasibətlərində olan şəxsi alçaldan və təhqir edən, başqa cinsə və ya seksual yönümə mənsubiyyətdən irəli gələn və fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranış kimi müəyyən olunur. Qanun cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını, habelə seksual qısnamanı qadağan edir, gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətlərini və bu sahədə dövlətin vəzifələrini müəyyən edir, əmək və təhsil hüquqlarının həyata keçirilməsində, iqtisadi və sosial münasibətlərdə, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyinin təminatlarını nəzərdə tutur.*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 6-cı maddəsinə əsasən cinayət törətmiş şəxslər qanun qarşısında bərabərdirlər, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq cinayət məsuliyyətinə cəlb olunurlar; həmin əsaslara görə heç kəs cinayət məsuliyyətinə cəlb edilə və ya cəzalandırıla bilməz, yaxud cəzadan və ya cinayət məsuliyyətindən azad edilə bilməz.

Cinayət Məcəlləsinin xüsusi hissəsində nəzərdə tutulmuş bəzi əməllər bilavasitə qadınların kişilərlə hüquq bərabərliyi ilə əlaqədardır; buraya aid edilə bilər: “İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq şəxsin hüquq və qanuni mənafelərinə zərər vurmaqla şəxsin bərabərlik hüququnu pozma” (maddə 154)

## Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi[14]

Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 11-ci maddəsinə əsasən Azərbaycan Respublikasında cinayət prosesi hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir. Cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən şəxslərdən hər hansı birinə vətəndaşlıq, sosial, cinsi, irqi, milli, siyasi və dini mənsubiyyətindən, dilindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, yaşayış yerindən və olduğu yerdən asılı olmayaraq və qanunla əsaslandırılmamış digər mülahizələrə görə üstünlük vermir.

## "Media haqqında" Azərbaycan Respublikasının Qanunu[15]

- ✓ "Media haqqlnda" Qanunda irqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkilik təbliğ olunmaması, habelə etnik, irqi və ya dini düşmənçiliyin salınmasına açıq çağırışlar edilməməsi, zorakılıq və qəddarlıq təbliğ olunmaması, əxlaqdankənar leksik (söyüş) məzmunlu söz və ifadələrdən, jestlərdən istifadəyə, şərəf və ləyaqətin alçaldılmasına, işgüzar nüfuzun ləkələnməsinə yol verilməməsi;
- ✓ Şəxsin ailə və şəxsi həyatına aid sirr olan məlumatların yayılmasına, böhtana, təhqirə və nifrət çıxışlarına **yol verilməməsi mediada dərc olunan və (və ya) yayımlanan informasiyaya dair tələblər kimi müəyyən edilib (14-cü maddə).**
- ✓ **Eyni zamanda faktlar və hadisələr qərəzsiz və obyektiv təqdim olunmalı, birtərəfliliyə yol verilməməlidir.**
- ✓ Qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin təqsirli olması barədə məlumatların dərc edilməsinə (yayımlanmasına) yol verilməməlidir.
- ✓ "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə əməl edilməlidir;

**İnformasiyanın yayılmasına yol verilməyən hallar** (**maddə 15):**

- şəxsin gizli saxlanmaq şərtilə verdiyi informasiyanın proqram və materiallarda yayılmasına;
- məlumat vermiş şəxsin razılığı olmadan onun şəxsiyyətinin açıqlanmasına;

[14] https://www.e-qanun.az/framework/46950

[15] https://e-qanun.az/framework/49125

- təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi olmadan ibtidai araşdırma məlumatlarının yayılmasına;
- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada tərtib edilən və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sənədləşdirilmiş informasiya hesab edilən cinayət təqibi üzrə icraat materiallarının surətlərinin olduğu kimi yayılmasına;
- yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə hər hansı məlumatların həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı olmadan yayılmasına;

# III. hissə. Məişət zorakılığı hallarının mediada işıqlandırılması və peşəkar kodekslərin tələbləri. Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları

## Beynəlxalq Jurnalistlər Federasiyasının (IFJ) Məişət zorakılığı hallarının mətbuatda işıqlandırılması ilə bağlı rəhbər prinsipləri[16]

Məişət zorakılığı hallarının mətbuatda işıqlandırılması ilə bağlı etik və məsuliyyətli yanaşmanın vacibliyini vurğulayan Beynəlxalq Jurnalistlər Federasiyası müvafiq rəhbər prinsiplər hazırlayıb. Bu sənəd jurnalistlər üçün bələdçidir və qadınlara qarşı zorakılıq probleminin işıqlandırılmasına dair etik tövsiyələr verir.

Zərəçəkənlərin hüquqlarına hörmət, sensasiyalardan qaçmaq, materialların hazırlanmasında dəqiqlik və obyektivlik və məxfiliyin qorunması kimi əsas prinsipləri təqdim edir. Sənəddə müəyyən bir mövzunu əhatə edərkən dil seçimi ilə bağlı tövsiyələr var, məsələn, zərərçəkənlərin damğalanmasına səbəb ola biləcək sözlərdən istifadə etməmək və problemi hər kəs üçün əlçatan və başa düşülən hala gətirməyə kömək edən bir dildən istifadə etmək.

Sənəd, həmçinin zərərçəkənlər və onlarla işləyənlər üçün şəxsi həyatlarını qorumaq, gizlilik və kömək və dəstək almaq barədə məlumat vermək də daxil olmaqla təhlükəsiz şərait yaratmaq üçün tövsiyələr verir.

Əsas diqqət problemi dəqiq və obyektiv şəkildə təqdim etməklə yanaşı, zərərçəkənlərin hüquq və ləyaqətinə hörmət etmək və bütövlükdə cəmiyyətin xeyrinə işləmək üçün qadınlara qarşı zorakılıq problemini işıqlandırarkən etik prinsiplərə və standartlara riayət etmək ehtiyacına yönəldilmişdir.

**Federasiyanın bələdçisinin əsas prinsipləri aşağıdakılardır:**

- ✓ Zərərçəkənlərin şəxsi həyatına və məxfiliyinə hörmət edin. Onların şəxsiyyətlərini qoruyun, şəxsi həyatları ilə bağlı spekulyasiyalardan qaçın və onların razılığı olmadan şəxsiyyəti müəyyənləşdirən hər hansı detalları dərc etməyin.

- ✓ Zorakılıq mədəniyyətinə töhfə verə biləcək zərərçəkəni günahlandırmaqdan və stereotipləri gücləndirə biləcək ifadələrdən, o cümlədən qurbanların yaşadıqları

[16] https://www.ifj.org/fileadmin/user_upload/IFJ_Guidelines_for_Reporting_on_Violence_Against_Women_EN.pdf

zorakılığa görə məsuliyyət daşıdığını və ya davranışlarının zorakılığa bəraət qazandırdığını göstərən ifadələrdən çəkinin.

- ✓ Statistikalar, hüquqi təriflər və zərərçəkənlər üçün mövcud olan xidmətlər daxil olmaqla, məişət zorakılığı haqqında dəqiq məlumat təqdim edin. Bu məlumat ictimaiyyətə problemi daha yaxşı başa düşməyə və müsbət dəyişiklikləri təşviq etməyə kömək edə bilər.

- ✓ Həm zərərçəkənlər, həm də daha geniş ictimaiyyət üçün məişət zorakılığı ilə bağlı materialın, məlumatın potensial təsirini nəzərdən keçirin. Jurnalistlər və media subyektləri öz reportajlarının potensial nəticələrini nəzərə almağa və məişət zorakılığı halı və onun təsirini balanslaşdırılmış və dəqiq təsvir etməyə çalışmalıdırlar.

- ✓ Öz yanlışlarınızı təhlil edin, xəbərdar olun və onları aradan qaldırmağa çalışın. Jurnalistlər və media subyektləri məişət zorakılığı halları ilə bağlı obyektiv və qərəzsiz məlumat verməyə çalışmalıdırlar.

- ✓ Məişət zorakılığı halı ilə bağlı materialların, məlumatların hüquqi və etik mülahizələrindən xəbərdar olun. Bura məxfilik, diffamasiya və dəqiqliklə bağlı olanlar kimi müvafiq qanunlara və davranış kodekslərinə riayət etmək daxildir.

- ✓ Məsuliyyətli və etik tərzdə məişət zorakılığı halı haqqında məlumat verməyə kömək etmək üçün təlim və resurslar axtarın.

## **ABŞ Peşəkar Jurnalistlər Cəmiyyətinin etik kodeksi** (SPJ) [17]

Peşəkar Jurnalistlər Cəmiyyətinin etik kodeksi ABŞ - da etik jurnalist praktikasına dair rəhbər prinsiplər toplusudur. Kodeks dürüstlüyün və dəqiqliyin vacibliyini vurğulayır, müstəqillik, şəffaflıq və hesabatlılıq dəyərlərini təbliğ edir. **Kodeks dörd əsas prinsipdən ibarətdir- həqiqəti axtarmaq və hesabat vermək, zərəri minimuma endirmək, müstəqil hərəkət etmək, hesabatlı və şəffaf olmaq:**

- ✓ **Birinci prinsipə görə, jurnalistlərə həqiqəti axtarmaq və bu barədə dəqiq məlumat vermək və dərc etməzdən əvvəl məlumatları diqqətlə yoxlamaq tövsiyə olunur.** Bu

[17] https://journalistsresource.org/home/code-of-ethics/

prinsip həm də şəffaflığın və mənbələrin açıqlanmasının vacibliyini və plagiat və saxtakarlıqdan qaçınmağın vacibliyini vurğulayır.

- **Zərərin minimuma endirilməsi** – Bu prinsipi məişət zorakılığı kimi həssas məsələlərin işıqlandırılması nəticəsində yarana biləcək potensial zərərləri qəbul edir. Jurnalistlərın hazırladığı materialların verə biləcəyi potensial zərərlərə qarşı diqqətli olmaları və zərərçəkənlərin şəxsi və ailə sirri hesab ediləcək məlumatlatların açıqlanmaması və təhlükəsizliyini qorumaq, mümkün ziyanı minimuma endirmək üçün addımlar atmaları tövsiyə olunur.

- **Müstəqil hərəkət etmək prinsipi** hesabata təsir edə biləcək maraq toqquşmalarının və xarici təzyiqlərin qarşısını almağın vacibliyini vurğulayır. Jurnalistlərə həm reportajlarda, həm də şəxsi inanclarda qərəzdən çəkinmələri və konkret şəxslərin və ya qrupların deyil, ictimai maraqlar naminə hərəkət etmələri tövsiyə olunur.

- **Hesabatlılıq və şəffaflıq prinsipi jurnalist** materiallarına görə məsuliyyət daşımağın və bu materialların hazırlanması ilə əlaqədar qərar qəbuletmə prosesində şəffaflığın vacibliyini vurğulayır. Buraya səhvlərin etirafı və düzəldilməsi, oxucuların rəy və tənqidləri üçün açıq kanal təqdim etmək daxildir.

## Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları[18]

Jurnalist etikası kodekslərinin müxtəlif ölkələrdə öz xüsusiyyətləri var. Jurnalistlərin işlədiyi mühitin xüsusiyyətlərini nəzərə alırlar. Məsələn, Tacikistan Jurnalistlər Kodeksində yerliçiliklə mübarizənin zəruriliyindən bəhs olunur və jurnalistlərə dinlərarası ixtilafın qızışdırılması təhlükəsi barədə xəbərdarlıq edilir və s. Bununla belə, jurnalistlərin etik kodekslərinin üçün bir sıra ümumi etik normalar mövcuddur. Bu cür ümumi və xüsusilə əsas olanlar sırasında vətəndaşların etibarlı məlumat almaq hüququndan, şəxsi həyata və ləyaqətə hörmətdən, universal dəyərlərə və mədəniyyətlərin müxtəlifliyinə hörmətdən, müharibələrə və digər bəlalara qarşı mübarizə ehtiyacından bəhs edir. Son illərdə isə artıq unversal qəbul olunan ümumi etik prinsip kim gennder bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi jurnalist etikası kodekslərinə ayrıca əlavə olunur.

Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydalarına da 2018-ci ildə Avropa Şurasının və Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə ona yeni prinsiplər əlavə edilib. Bu yeni prinsiplərdən biri (4-cü prinsip) "Gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi prinsipinin müdafiəsi" əlavə edilib.

Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları Sənəd 2003-cü il martın 15-də Azərbaycan Jurnalistlərinin I Qurultayında qəbul edilib. ATƏT və Azərbaycan Mətbuat Şurasının birgə layihəsi əsasında təkmilləşdirilib. Bütün dəyişikliklər 2022-ci il sentyabrın 24-də Azərbaycan Jurnalistlərinin VIII Qurultayında bütün yenilik və dəyişikliklər təsdiq olunaraq qüvvəyə minib.

**Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydalarının 4-cü "Gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi prinsipinin müdafiəsi" prinsipi aşağıdakıları nəzərdə tutur:**

- ✓ Jurnalist gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi prinsipinə hörmət etməli, cinsi ayrı-seçkilik yaradan və ya cinsi nifrətə çağıran üslubdan uzaq durmalı, cinsiyyətçi ifadələr işlətməməli, xəbərin məzmunu bilavasitə tələb etmirsə, şəxsin cinsi mənsubiyyətini qabartmamalıdır.

- ✓ Jurnalist gender stereotiplərini təbliğ etməməli, mediada qadınların və kişilərin gender stereotiplərindən azad obrazını təsvir etməlidir.

[18] https://presscouncil.az/az/code-of-professional-ethics-for-journalists-in-azerbaijan

- Jurnalist gender-əsaslı zorakılıq hallarının mediada işıqlandırılmasına həssaslıqla yanaşmalı, gender-əsaslı zorakılığı təşviq etməməli və cəmiyyətdə onun neqativ nəticələrinə dair məlumatlılığı artırmalıdır.
- Jurnalist çalışdığı və ya əməkdaşlıq etdiyi media qurumunda cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyə məruz qalmamalı, kişi və qadın jurnalistlərə bərabər hüquqlar və imkanlar təmin olunmalıdır.

**Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları bunlarla yanaşı aşağıdakıları da tələb kimi müəyyən edir, hansı ki, bunlar məişət zorakılığı hallarının işıqlandırılması zamanı əhəmiyyətə malikdir:**

- Yazıda şərhlər elə şəkildə ifadə edilməlidir ki, oxucu onu xəbərdən, faktdan ayıra bilsin, bunun məhz jurnalistin mövqeyi olduğunu anlasın.
- Jurnalist məlumatların və ya təsvirlərin əldə edilməsi məqsədi ilə hədələməyə, güc tətbiqinə və ya təhdidə yol verməməlidir.
- Jurnalist adamları millətinə, irqinə, cinsinə, dilinə, peşəsinə, dininə, yaşadığı və ya anadan olduğu yerinə görə pisləməməli,onlar haqqında bu qəbildən olan bilgiləri qabartmamalıdır.
- Jurnalist görüşdüyü, haqqında yazdığı hər bir şəxsin şərəf və ləyaqətinə, şəxsi həyatının toxunulmazlığı prinsipinə hörmətlə yanaşmalıdır.
- Jurnalist vətəndaşların şəxsi həyatına aid faktları, onlar cəmiyyətin maraqlarına toxunmursa, hüquqa zidd deyilsə və ya ictimai əhəmiyyət kəsb etmirsə, özlərinin razılığı olmadan yaya bilməz.
- Jurnalist və kütləvi informasiya vasitəsi buraxdığı səhvi, həmin səhvi kimin müəyyən etməsindən asılı olmayaraq, maksimum qısa müddətdə və tam həcmdə aradan qaldırmalıdır. Düzəliş zamanı aydın olmalıdır ki, əvvəl verilən məlumat tam, yoxsa konkret hansı hissədə səhvdir.
- Bədbəxt hadisələr və ya cinayət nəticəsində zərər çəkmiş şəxslərin razılığı olmadan onların adları açıqlanmamalı, şəkilləri verilməməlidir. Bu, yalnız xüsusi məqamlarda və zərərçəkənin ictimai fiqur olduğu hallarda mümkündür. Əgər cinayəti yeniyetmələr və ya uşaqlar (18 yaşı tamam olmamış şəxslər) törədibsə, bu zaman da cinayətkarın adını açıqlamaqdan və şəklini yaymaqdan çəkinmək lazımdır.

- ✓ Jurnalist, cinayətdə şübhəli bilinən şəxsin təqsirsizlik prizumpsiyası hüququna hörmətlə yanaşmalı, onu təqdim edərkən onu cinayətkar yox, şübhəli şəxs qismində saxlanılan kimi təqdim etməlidir.
- ✓ Jurnalist cinayət əməlləri, zorakılıq, qəddarlıq və intihar halları barədə reportajlarda belə əməllərin təşviqi və ya əsassız olaraq sensasiyalı formada təqdim olunmasından çəkinməlidir. Jurnalist zorakılığı təşviq edən, təhrik etməyə səy göstərən və ya belə hallara əl atan şəxslər tərəfindən vasitə kimi istifadə olunmamalı, əksinə, öz reportajlarında belə şəxslərin fəaliyyəti barədə müvafiq məhdudiyyətləri tətbiq etməli və yalnız müvafiq informasiyanın ictimai əhəmiyyət kəsb etməsi şübhə doğurmadıqda bu barədə reportajlar hazırlamalıdır.
- ✓ Jurnalist yazılarında vulqar ifadələrin, jarqonların işlədilməsindən çəkinməli, Azərbaycan dilinin zənginləşməsinə öz töhfəsini verməklə yanaşı, onun təmizliyinin qorunub saxlanmasına da çalışmalıdır.

Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları ilə müəyəyn olunmuş bu etik normalar məsuliyyətli jurnalistikanı təşviq etmək və kütləvi informasiya vasitələrinə ictimai inamı qorumaq məqsədi daşıyır. Eyni zamanda Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları 4-cü prinsipi və qeyd edilmiş dugər prinsiplər medianın məişət zorakılığı hallarından zərərçəkənlərin hüquq və ləyaqətinə hörmət ediləcək şəkildə davranmasına, fəaliyyət göstərməsinə barədə vacib tövsiyələr verir.

## IV. hissə. Jurnalistlər üçün tövsiyyələr

Bu tövsiyyələr beynəlxalq təcrübənin təhlili və bir çox jurnalist etika kodeksi və bələdçilərinin təhlili əsasında hazırlanıb. Tövsiyyələr məişət zorakılığı hallarının obyektiv işıqlandırılması, dinləyicilərə və izləyicilərə bunun nə qədər geniş yayıldığını, kimlərin əziyyət çəkdiyini, bu halların qarşısının alınmasına necə kömək edə biləcəyini, jurnalist materiallarının zərərçəkənlərin hüquq və ləyaqətinə hörmət ediləcək şəkildə hazırlanmasına kömək etmək məqsədilə hazırlanıb[19].

### Zərərçəkənlərin təhlükəsizliyinin təmin edilməsi, hüquqlarına və ləyaqətə hörmət

[19] Gender-Ethical Journalism_Book 1-ru.pdf

Təhlükəsizlik hər şeydən üstündür: problemi zərərçəkənin təhlükəsizliyini pozmayacaq şəkildə işıqlandırdığınıza əmin olun. Zərurət olmadıqca, mahiyyətə aid deyilsə zərərçəkən barədə əlavə məlumatlar əldə etməyə imkan verəcək məlumatlar drəc etməyin (Məsələn, uşaqların sayı, ev və ya ev heyvanları haqqında məlumat, ünvan məlumatları).

Mahiyyətlər ilə əlaqəli deyilsə, insanları irqi, etnik mənsubiyyəti və ya digər statusu ilə bağlı məlumatlar verməyin . Lazım olmadan bu cür identifikatorların daxil edilməsi zorakılığın səbəbləri ilə bağlı mifləri gücləndirə bilər və irqində, dininə və s. görə insanı zərərçəkdiyini və ya cinayət törətdiyi təəssürataı yarada bilər.

Zərərçəkənləri "kasıb" və ya "bədbəxt" qadınlar kimi təsvir etməyin, Bu, onların ləyaqətini alçaldır.

## Zorakılığa haqq qazandırmağa imkan verəcək davranışdan çəkinin

Qanunvericlik imkan verdiyi hallarda "qadınlara/uşaqlara qarşı zorakılıq", "məişət zorakılığı", "hücum", ifadələrdən istifadə edin. Bu qadınlara qarşı zorakılığın geniş yayıldığını və bunların "təsadüfi zorakılıq hərəkətləri" olmadığını başa düşməyə kömək edir.

Zorakılıq hadisəsinin əhəmiyyətini aşağı salan ifadə və terminlərdən istifadə etməyin.

Səbibindən asılı olamayaq zorakılığa görə məsuliyyət həmişə onu törədən şəxsin üzərinə düşməlidir. Jurnalistlər oz reportajlarında bu amili nəzərə almalıdırlar.

Sübutlara əsaslanın, qadınlara qarşı zorakılığın əksəriyyətinin gender bərabərsizliyindən qaynaqlandığına dair dəlilləri, arqumentləri anlamağa kömək edən dil və üslübdan istifadə edin. O cümlədən, qadınlara qarşı zorakılığa haqq qazandırmaq və ya icazə vermək, məhdudlaşdırıcı gender stereotiplərini güclədnircəcək ifadə və terminlər işlətməkdən çəkninin.

Qadınlara qarşı hörmətsizliyi təşviq edən mxətəlif qruplar zorakılığı alkoqol və ya narkotikdən qaynaqlanan və ya psixi sağlamlıq, stress, maliyyə, mədəniyyət və əlilliyi olan birinə və ya cinayət tötətməkdən qorumaq üçün zorakılıq tətbiq edildiyini əsaslandırmağa çalışa bilərlər. Bu problemlər zorakılığın əsas səbəbi, hərəkətverici qüvvəsi deyil. Şiddəti əsaslandıran və ya zərərçəkəni başına gələnlərdə istəmədən günahlandıran ifadələrdən istifadə etməyin, o cümlədən sərxoş olub-olmamaları, gecə gec gəzmələri, tək gəzmələri, digər insanlarla görüşmələri və s. barədə məlumatları verməkdən çəkinin. Jurnalistlər bu məqamalı diqqətdə saxlamalıdırlar və zorakılığın təbii olduğu, qəsd olmadığı kimi təqdimatlardan çəkinməlidirlər.

## Şəkillərdən və görüntülərdən istifadə edilməsi

Müvafiq şəkillərdən və görüntülərdən istifadə edin. Unutmayın ki, şəkillər və görüntülər hekayəni izah etmək üçün vacibdir, lakin cinsiyyət, irq, əlillik, cinsiyyət və yaşla bağlı zərərli stereotipləri gücləndirə bilər. Zərərçəkənlərin "sərxoş olduğunu", cinayətkarından gizləndiyini, "anlaqsız" və "məsuliyyətsiz" olduğunu və ya zor tətbiq edən haqqında "o, nümunəvi bir ailə adamı idi' ifadələri ilə görüntləri şərh etmək yolverilməzdir. Şəkillərin, görüntülərin bunların şəxs haqqında hansı hekayəni izah etdiyini özünüzdən soruşun və bu görüntünün zorakılığaı məruz qalmış şəxs və, ailələrinə hansı təsir göstərə biləcəyini düşünün. Cinayətkarı diqqətdə saxlayan şəkillərdən istifadə edin. "Sıxılmış yumruqlar" və "qadınları qeyri təbii vəziyyətlərdə" göstərən şəkilləri yaymaqdan çəkinin.

Zorakılıq səhnəsinin konkret, qrafik təsvirlərinin təfərrüatlarla təqdimatından çəkinmək lazımdır, çünki bu zərərçəkənin ləyaqətini təhqir edir və tamaşaçıları müşahidəçi vəziyyətinə salır, digər tərəfdən isə digər cinayətkarlara zorakı davranış üçün fikirlər verir.

Zorakılığı mübahisəyə bərabərləşdirməyin. Mübahisə zamanı iştirakçılar bərabərdir və qorxu hissi yoxdur, zorakılıq isə bərabərsizliyi və nəticələrdən qorxutmağı nəzərdə tutur.

Zorakılığı məişət / ailə problemləri ilə eyniləşdirməyin.

## Zorakılıq hadisələri ilə bağlı şərhlər

Şərh üçün mütəxəssislərə müraciət edin edin. Problemi kontekstdə təqdim etmək üçün qadınlara qarşı zorakılıq hallarını araşdıran mütəxəssislərə müraciət edin. Zorakılığı törətmiş şəxsin xarakterini qonşular və ya dostlar tərəfindən qiymətləndirmək də daxil olmaqla diqqətli olun, Məsələn: "O, "gözəl ər" və "sevən ata"idi – ifadələrindən ehiyatla istifadə edin. Bunu etmək təhlükəlidir, çünki məişət zorakılığı ən çox gizli və uzun müddət ərzində baş verir. Qadınlara qarşı zorakılıq hallarını şərh edərkən yalnız polis və ya məhkəmə şərhlərinə etibar etmək olmaz. Unutmayın ki, polis qeydə alınmış cinayətlərin tarixini təqdim edə bilsə də, qadınlara qarşı zorakılıq hallarının əksəriyyəti "hadisələr" deyil, cinayət deyil və qadınlara qarşı zorakılıq hallarının əksəriyyəti bildirilmir. Həmçinin, unutmayın ki, polis və ya məhkəmə orqanları zərərçəkənləri zorakılığı əsaslandıran və ya zərərli stereotipləri əbədiləşdirən ifadələrdən istifadə edə bilər.

Həmişə köməyə ehtiyacı ola biləcək auditoriyanızdakı kişilərə, qadınlara və uşaqlara kömək etmək fürsətindən istifadə edin. Məişət məruz qalan insanlar üçün mütəmadi olaraq xüsusi dəstək imkanları haqqında məlumat daxil edin. Məsələn, qyanar xətlər, müvafiq dövlət orqanlaırnın, ictimai təşkilatlar barəəd məlumat verin.

## Mühakimə etməyin

Mühakimə etməkdən çəkinin. Zərərçəkənin hekayəsini, nə geyindiyini, harada olduğunu, nə etdiyini və ya günün hansı vaxtında zorakılığın baş verdiyini yazmaq, zərərçəkəni günahlandırmaq üçün istifadə edilə bilər. Ümumiyyətlə, gender əsaslı zorakılığı əhatə edən bütün mediada sadalananlar kimi kontekstual amillərdən qaçınmaq lazımdır. Zərərçəkən və zorakılığı törədənin etnik mənsubiyyəti bildirilməməlidir.

Zorakılıq onu törədənin xarici şəraiti və ya şəxsi xüsusiyyətləri (məsələn, yoxsulluq, mədəniyyət, yüksək hərarət, iş itkisi, ruhi xəstəliklər, alkoqolizm, narkomaniya) ilə əsaslandırıla bilməz. Qadınlara qarşı zorakılıq heç vaxt faciəli hadisə deyil, bir qayda olaraq düşünülmüş hərəkətidir. Zorakılıq asılılığın əks olunması deyil. Alkoqoldan və ya psixoaktiv maddələrdən asılı olan şəxslər bunların heç birini istehlak etməyən insanlar qədər qəddar ola bilər. Bundan əlavə, alkoqoldan və ya psixoaktiv maddələrdən asılı olan şəxslər mütləq zorakılığa meylli deyillər.

Tanınmış və nüfuzlu şəxs olsa belə, zorakılığı törədənə bəraət qazandırıla bilməz.

Zorakılığı törədən şəxs istənilən sosial təbəqəyə mənsub ola bilər. Bu, zorakılığa haqq qazandırmaq üçün səbəb olmamalıdır.

## Zərəçəkənlə müsahibələr

Xüsusilə cinsi təcavüz halında, "manyak", "nəzarətsiz çağırışların nəticəsi" və bu kimi ifadələr istifadə edilməməlidir. Bunlar ruhi xəstə insanlar deyil və istəklərini idarə edə bilirlər.

Bütün müsahibələr və səs yazıları üçün zərərçəkənlərin razılığını alın. Zərəçəkən şəxsin məlumatlarının açıqlanmasının bütün potensial məlum müsbət və ya mənfi nəticələrini başa düşdüyünü nümayiş etdirdikdə əldə edilir və onun məlumatının necə istifadə ediləcəyini, o cümlədən hansı müəyyənedici məlumatın, əgər varsa, paylaşıla biləcəyini dəqiq izah edə bilər.

Zərərçəkənə müsahibənin məqsədini, xəbər süjetinin kontekstini, müsahibənin harada keçiriləcəyini izah edin, müsahibənin necə yayımlanacağı, tərcüməçinin adı və s. Müsahibə ilə

əlaqəli potensial riskləri izah edin. Müsahibənin istənilən hissəsini rədd etmək və istənilən vaxt ləğv etmək hüququna malik olduğunu izah edin. Nəyin gizli saxlanacağını və məxfiliyin məhdudiyyətlərinin nə olduğunu izah edin.

Heç vaxt zərərçəkənə onun vəziyyətində nə edəcəyinizi və ya sizin fikrinizcə nə etməli olduğunu söyləməyin . Zərərçəkən şəxsə verdiyiniz vədlərə əməl edin. Əgər mətni dərc etməzdən əvvəl ona göndərəcəyinizi söyləyirsinizsə, bunu edin. Fikrini dəyişdirmək hüququ da var. Sağ qalan şəxsə verdiyi açıqlamaya görə təşəkkür edin və bu barədə danışmaq üçün cəsarət nümayiş etdirdiyini xatırladın.

Redaktorlara qadınlara qarşı zorakılıq mövzusuna hərtərəfli yanaşmaq tövsiyə olunur, yəni ayrıca zorakılıq hallarını işıqlandırarkən hadisəni başdan sona qədər izləyin (günahkara verilən qanuni cəza da daxil olmaqla). Cəzaların işıqlandırılması şiddətin qarşısını almağa kömək edir, ictimaiyyəti məlumatlandırır. Zorakılığın cəzalandırıldığı mesajını verir, bu da dolayı yolla ictimai rəyə və zorakılığın qəbuledilməzliyi və zərərçəkənlərin qorunması zərurəti barədə məlumatlılığa təsir göstərir.

Yalnız konkret hallar barədə deyil, həm də qadınlara qarşı zorakılığın qarşısının alınması və maarifləndirilməsi məqsədi ilə məlumatların təqdim edilməsi tövsiyyə olunur. Qadınlara qarşı zorakılıq fenomeni yalnız ailə daxilində baş verən və yalnız ailə üzvləri tərəfindən törədilən və ya onlara təsir edən zorakılıqdan daha geniş və daha geniş yayılmışdır. Qadınlara qarşı zorakılıq təkcə fiziki deyil, həm də psixoloji, iqtisadi, cinsi zorakılığı əhatə edir ki, bu da təhlükəlidir və həm ailə daxilində, həm də onun hüdudlarından kənarda ağır nəticələrə səbəb olur, buna görə də bu aspektlər barədə ictimaiyyəti məlumatlandırmaq və maarifləndirmək vacibdir.

Başlıqlara diqqət yetirmək xüsusilə vacibdir, çünki onlar ən çox nəzərə çarpır və çox vaxt oxucuların həqiqətən oxuduğu yeganə hissədir. Mətn tamamilə doğru olsa belə, başlıq yersiz ola bilər. Qadınlara qarşı zorakılıqla bağlı yaxşı başlıqlar "qəddar", "dəhşətli", "şok", "dəhşət" və sair kimi sensasiyalı ifadələrlə başlamamalıdır. Başlıqlar sadalanan bütün qaydalara uyğun olmalıdır.

## Uşaqlı qadınlara qarşı zorakılıq hallarının işıqlandırılması

Uşaqlı qadınlara qarşı zorakılıq və ya uşaqların özləri zorakılığa məruz qaldıqları hallar barədə məlumat verərkən. Uunutmayın ki, uşaqlar həmişə məişət zorakılığının qurbanı olurlar – birbaşa və ya dolayı yolla.

"Uşaqların hər iki valideynə ehtiyacı var" stereotiplərindən çəkinin. Uşaqların zorakılığa meylli olmayan valideynlərə və ətraf mühitə ehtiyacı var. Valideyn və ya qəyyum razılıq versə belə, vəziyyətin incəliyi və bu qrupun zəifliyi səbəbindən uşaqların ifadələrini qəbul etməkdən çəkinin.

Yayılacaq məlumatlarla bağlı diqqətli olun. Uşağın şəxsiyyətini və ya şəxsiyyətinin açıqlanmasına səbəb ola biləcək detalları heç vaxt açıqlamayın, uşaqların sayı və yaşları haqqında məlumat ötürmək məqbuldur, lakin baş hərfləri, yaşadıqları yer, oxuduqları məktəb və ya qohumunun tam adı deyil, çünki bu məlumatlar asanlıqla onların müəyyənləşdirilməsinə səbəb ola bilər.

## Məişət zorakılığından zərər çəkmiş əlilliyi olan qadınlarla bağlı halların işıqlandırılması

Mətbuatda əlilliyi olan şəxslərdən danışarkən, tez-tez əzab, ağrı, tale, habelə cəsarət və cəsurluq kimi ifadələrdən istifadə edilir. Əlilliyi olan şəxslər "öz talelərinə sahib çıxır" və ya "əlillik səbəbilə əzab çəkir". Bu cür ifadələr əlillik barədə çox nöqsanlı təsvir yaradır və əlilliyi olan şəxslərə qarşı ayrı-seçkiliyə yol verir. Bununla yanaşı, əlilliyi olan qadınlara qarşı zorakılıq barədə fərqləndirilmiş xəbərlərin sayı çox azdır. Xəbərlərdə onlar çox zaman özlərini müdafiə edə bilməyən "köməksiz qurbanlar" kimi təsvir edilir. Əslində, əlilliyi olan qadınlar və qızlar zorakılığa əlilliyi olmayan qadın və qızlardan daha çox məruz qalırlar. Bunun səbəblərindən biri onların yaşayış şəraiti və başqalarından asılılıq və tabeçilikdir. Bu səbəbdən, əlilliyi olan qadınları və qızları passiv "qurbanlar" kimi təsvir etməmək, lakin onlar üçün əlverişsiz olan struktur və şəraiti vurğulamaq daha vacibdir. Əlillik və ya məhdudiyyətlərin necə qeyd olunması ilə bağlı çox vaxt qeyri-müəyyənliklər yaranır. Söz seçiminə gəldikdə, "əlilliyi olan şəxslər" termini qəbul edilmişdir.

## İkinci dərəcəli viktimizasiya

İkinci dərəcəli viktimizasiya o zaman baş verir ki, zərər çəkmiş şəxs cinayət əməlinin birbaşa nəticəsi kimi deyil, məsələn, jurnalistlərin zərər çəkmiş şəxslə davranışı, işi nəticəsində zərər çəkir. İkinci dərəcəli viktimizasiyanın səbəbi, məsələn, zərər çəkmiş şəxsin dəfələrlə zorakılığı törətmiş şəxslə bir araya gətirilməsi, eyni faktlar barədə dəfələrlə dindirilməsi, qeyri-adekvat ifadələrdən istifadə, yaxud zərər çəkmiş şəxslə təmasda olan şəxslərin işlətdiyi qeyri-həssas qeydlər ola bilər. Bu, zərər çəkmiş şəxslərlə pis rəftar və onlar barədə sensasiya xarakterli və hörmətlə yanaşmayan xəbər nəticəsində baş verir. Bu, zərərli və ya cinayət xarakterli əməlin

birbaşa nəticəsi kimi deyil, medianın cinayətə zərərli reaksiyası nəticəsində baş verir və qadının təhlükəsizliyinə, ləyaqətinə real təhdid yaradır. Buna görə də, belə hallardan çəkinmək lazımdır. Zərər çəkmiş şəxsə hörmət, məxfilik və peşəkarlıqla yanaşılmasını təmin etmək son dərəcə vacibdir. Buraya zərər çəkmiş şəxsin özünün etibarlı şəxs olmaması və ya hadisəni şişirtməsi təəssüratını yaradacaq suallardan çəkinmək də daxildir.